## NAXÇIVANIN TƏBİİ SƏRVƏTLƏRİNİN QORUNMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Nizami Rzayev**

*AR ETN Radiasiya Problemləri İnstitutu, Bakı*
*rzayevnr@rambler.ru*

Müasir dövrdə super güc olan dövlətlərin bəzisinin mövcud olmadığı vaxtlarda Azərbaycanda təbiəti mühafizə və ondan səmərəli istifadə olunması haqda fərmanlar mövcud idi. XII əsrdə Atabəylər dövlətinin paytaxtı olan Naxçıvanda sarayda bitkiçilik üzrə xüsusi mütəxəssislər saxlanılırdı. Heyvan və quşların kütləvi ovlanması qadağan edilirdi. XIII əsrdə Qazan xanın fərmanı ilə əhalidən çöl quşları və heyvanlarının qışda qorunması üçün vergi alınırdı. Kənd yerlərində qışda çöl heyvanları acından məhv olmasın deyə xüsusi yerlərdə ot tayaları qoyulurdu. Damların üzərində quşların yeməsi üçün dən səpilirdi. Meşələrdə yabanı ağaclara xalq seleksiyası sortları calaq edilməklə təbiətdən səmərəli istifadə edilirdi. Su mənbələrinin təmizliyinə xüsusi diqqət yetirilir və su mənbələrini çirkləndirənlər məsuliyyətə cəlb edilirdi. Naxçıvanda sovetləşmə dövründə kolxoz və sovxozlar yaradılıb, kütləvi şəkildə pambıq əkini tətbiq edilirdi. Əhalinin həyətyanı sahələri susuzluqdan məhv olurdu. Pambıq sahələrini sovkadan təmizləmək üçün kimyəvi dərmanlardan istifadə edilirdi ki, bu da əhalini, mal-qaranı, quşları zəhərləyib məhv edirdi. DDT adlanan kimyəvi maddənin tətbiqi biomüxtəlifliyi kütləvi şəkildə məhv edirdi. Əhali qul kimi pambıq tarlalarında işləməyə məcbur edilirdi. Bağlar, ağaclıqlar məhv edilib, yerində az gəlirli, çox su tələb edən sahə olan pambıqçılıqdan istifadə edilirdi. H.Ə.Əliyev bu mühitdə yaşamış, əhalinin güzəranını yaxşı bilirdi.

Heydər Əlirza oğlu Əliyevin 1969-cu ildə Azərbaycan KP Birinci katibi seçilməsinin əsas səbəblərindən biri ondan əvvəlki katibin Azərbaycan torpaqlarının ermənilər tərəfindən müxtəlif yollarla ələ keçirilməsinin qarşısını ala bilməməsi və xalqın dövlətdən narazılığı idi. Qədim Azərbaycan torpağı olan Zəngəzurun 1920-ci ildə sovet rəhbərliyi tərəfindən Ermənistana verilməsi nəticəsində 44-45 km enində zolaq Araz çayına doğru uzanaraq, Naxçıvan Muxtar Respublikasını Azərbaycan Respublikasının qalan ərazisindən ayırmışdır. 1920-1923-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası adlanmışdı. Naxçıvanda 50 illik yubiley keçiriləndən sonra İrəvana tədbirdə iştirak üçün gedən H.Ə.Əliyev Naxçıvan MR torpaqlarını zəbt edən ermənilərin oradan kənarlaşdırılmasını əmr edir. Bununla da hakimiyyətdə təmsil olunduğu müddətdə ermənilərin ərazi iddialarına son verilir. H.Ə.Əliyev Azərbaycan MK katibi olandan sonra Naxçıvanda pambıqçılıq ləğv edildi, üzümçülük və bağçılıq bərpa edildi. Naxçıvanın susuzluqdan məhv olmaqda olan kəndlərində artezian quyuları qazıldı. Bəzi kəndlərdə 7-8 ədəd artezian quyusu qazılmış, sahələr su ilə təmin edilmişdi. Su anbarlarının, göllərin tikintisi genişləndirilmişdi. Sudan səmərəli istifadə üçün torpaqaltı kollektor sisteminə keçilmişdi.

1695 hektar sahəyə malik Qarabağ ETB-də Azərbaycan, Qafqaz, İran, Türkiyə ərazisindən yığılmış kənd təsərrüfatı əhəmiyyətli yabanı və mədəni bitkilərin, xarici ölkələrdən introduksiya edilmiş ədviyyə, bəzək dekorativ bitkilər və s. qorunurdu. Həmin dövrdə bu baza Leninqraddakı (Sankt-Peterburq) Ümumittifaq Bitkiçilik İnstitutundan da yaxşı imkanlara malik idi. Heyvandarlıq və quşçuluq üzrə müxtəlif cinslərin genefondu burada toplanılmışdı. H.Ə.Əliyev dəfələrlə bu bazada olmuş, Azərbaycanda kənd təsərrüfatının inkişafını təmin etmək məqsədilə yeni sort və cinslərin yaradılması tapşırıqlarını vermiş, maddi bazasının möhkəmləndirilməsi məsələlərinə baxılmışdır. Bu dövrdə Azərbaycan EA Genetika və Seleksiya İnstitutun-

da yeni sortlar yaradılması məqsədilə molekulyar genetik tədqiqatlar aparılırdı. Biokimyəvi əlamətlərlə morfoloji əlamətlərin arasında əlaqələr, yüksək məhsuldar, biokimyəvi və texnoloji xüsusiyyətlərə malik taxıl sortları yaratmaq qarşıya məqsəd qoyulmuşdu. Mənim tərəfimdən Qarabağda nəzarət və müqayisəli sınaq bölməsində yetişdirilən bərk və yumşaq buğda sortları zülalın miqdarı, fraksiyaları, qliadin fraksiyası spektrləri ilə digər əlamətlər arasında genetik əlaqələr öyrənilmişdi. Qarabağ zonası üçün seçilən sortlarda və perspektiv formalarda qliadin spektrlərinin rastgəlmə tezliyini və buna əsasən hibridləşmənin ilkin mərhələsində seleksiya istiqamətini aşkar etmişdik. Bu tədqiqatların nəticəsi 1986-89-cu illərin hesabatında öz əksini tapmışdı. 1987-ci ildə Genetika və Seleksiya İnstitutunun Qarabağ Elmi-Tədqiqat Bazasının taxıl bitkiləri genefondunda olan 22000 nümunənin bir hissəsi və onların qeydiyyatı aparılan dəftərlər oğurlanıb İrəvana aparıldı. 1988-ci ildə Qarabağda ETB-nin fəaliyyəti dayandırıldı. 1990-cı ildə genetik fondun qorunması probleme çevrildi. Naxçıvanda Qarabağ bazasına oxşar baza yaratmaq üçün Azərbaycan EA prezidentinə müraciət etdim. Akademik İ.D.Mustafayevin mənim təşəbbüsümü dəstəkləməsi nəticəsində institut rəhbərliyi "Etiraz etmirik, amma vəsaitimiz yoxdur", Azərbaycan EA "Naxçıvanda Elmi-Tədqiqat Bazası yaradılması məqsədəmüvafiqdir" yazdı. Naxçıvan Nazirlər Soveti bu məqsədlə 50 ha torpaq sahəsi ayırdı. 1990-cı ildə 11 ştatla (4-ü Qarabağ Bazasında çalışan büdcə işçilərinin ştatları) işə başladıq. Eyni zamanda SSRİ rəhbəri M.Qorbaçova müraciət etdik ki, Ermənistan Naxçıvana məxsus torpaqlarda yaradılıb, orada 28 elmi tədqiqat institutu mövcuddur, Naxçıvan təbiəti dünyanın ən zəngin kənd təsərrüfatı bitkiləri, xüsusilə yabanı taxıl, endem meyvə, giləmeyvə bitkilərinin vətəni olduğu halda bir elmi institutu yoxdur. N.İ.Vavilov: "...Qafqazda, xüsusilə Naxçıvan ərazisində növəmələgəlmə prosesi indi də davam edir". SSRİ EA-nın göstərişi ilə Naxçıvan ETB-yə 360 ştat və əlavə vəsaitlər ayrıldı. 1989-cu ildə İ.D.Mustafayev tərəfindən yaradılan "Ağ buğda" sortunu Zeynəddin kəndində fermer təsərüfatına təqdim etmişdim. Bu buğda sortu hektardan 67 sentner taxıl vermişdi. 1990-ci ildə həmin ərazidə (ETB) əkdiyimiz Azərbaycanın qədim "Sirab" buğdası 42 sentner məhsul vermişdi ki, onu da həmin ilin noyabr ayında Ali Məclisin sədri H.Ə.Əliyevin təklifi ilə blokada şəraitində olan Naxçıvan əhalisinin çörəyə tələbatını ödəmək üçün dəyirman kombinatına vermişdik. 1990-cı ildə Genetika və Seleksiya İnstitutundan İ.D.Mustafayev tərəfindən 387 adda, sonrakı illər 145 adda taxıl sort və hibrid forması, müxtəlif meyvə bitkilərindən 73 ədəd əkin üçün verilmişdir. H.Ə.Əliyevin tapşırığı ilə kəndlərdən uzaq, dövlət fondunda olan Şornov massivindən torpaq sahəsi verildi. Elektrik olmağı üçün nasos stansiyalar işləmirdi. Su, işıq, qaz olmayan Naxçıvan MR-də əhali meyvə ağaclarını kəsib istifadə edirdi. Ona görə biz məcbur olub bir toxmacara imkan daxilində daha çox calaq edirdik. 1991-ci ildə İİR Urmiyə Ostandarlğının dəvəti ilə Araşdırma idarəsinə ezamiyyəyə getdim. Araşdırma idarəsi ilə Naxçıvan ETB arasında Protokol imzaladıq. Protokolun surətini H.Ə.Əliyevə təqdim edib, onların Azərbaycanın buğda və digər bitki sortlarını hansısa yolla apardıqlarını bildirdim. H.Ə.Əliyev Nazirlər Kabinetinə göstəriş verdi ki, "Bu gün qərar verirsiniz, Azərbaycan ərazisindən heç bir bitki toxumu, tingi, maddi-mədəniyyət nümunəsi başqa ölkəyə aparılmasın. Həmin adamlar cinayət məsuliyyətinə cəlb edilsin". H.Ə.Əliyevin Naxçıvanda işlədiyi zaman təbiətə əl qaldıranlara ən sərt cavablarından biri kəndlərə gedən yol kənarında olan söyüd və tozağaclarını kəsən Naxçıvan şəhər icra başçısı və polis idarəsinin rəisini işdən azad etməsidir. 1970-ci ildə H.Ə.Əliyevin tapşırığı ilə Naxçıvanda Ümümxalq iməcilikləri keçirilirdi. Biz də orta məktəb şagirdi kimi bu iməciliklərdə iştirak edirdik.

2002-ci ildə H.Ə.Əliyevin iş otağında pəncərədə bir gül səbəti içərisində mənim buğda genefondundan verdiyim sünbüllər saxlanılırdı və xarici qonaqlara göstərilirdi. H.Ə.Əliyevin Naxçıvan təbiətini qorumaq üçün bir çox təşəbbüsləri şifahi olduğu üçün ictimaiyyətə məlum deyil. Əhali meyvə ağaclarını kəsib yandıranda, 1993-cü ilin fevral ayında televiziya vasitəsilə xalqa müraciəti onun Naxçıvan təbiətini necə sevdiyini göstərən faktdır. Həmin gün onun qəbulunda olub vəziyyəti demişdim və xahiş etmişdim ki, hər ailəyə neft verilsin, əks halda, insanlar yaşamaq üçün bu addımı atırlar. Televiziya çıxışında: "Naxçıvan camaatı! Siz dözümlü və mərd insanlarsınız!.. Naxçıvanın gözəlliyi onun təbiətindədir! Bilirəm evinizdə qocalar, körpə uşaqlar, xəstələr var... Çalışın ağacları kəsməyin! Bu gündən hər ailəyə talonla, pulsuz 20 litr neft veriləcək. Kəsilən hər ağac üçün iki ting əkək". 1995-ci ildən başlayaraq "Yaşıllaşdırma aylığı" iməcilikləri keçirilirdi. Ordubad rayonunun Tillək və Batabat meşələrinin məhv olmaqdan xilası H.Ə.Əliyevin xidmətləridir.

Naxçıvan ETB H.Ə.Əliyevin tapşırığı ilə "Şornov" adlanan Dövlət fondunda 1992-ci ildən fəaliyyətə başladı. AMEA-nın Naxçıvan Bölməsi yaranana kimi Qarabağ Bazasında olduğu kimi, giləmeyvə, çəyirdəkli, tumlu meyvələr, çaytikanı plantasiyası, üzüm genefond bağı, tərəvəz və bostan bitkiləri, yem və texniki bitkilər, dənli-paxlalı bitkilər, taxıl bitkiləri, dərman və ədviyyə bitkiləri, dekorativ bitkilər üzrə 50 hektar sahədə əkin aparılmışdı. Yabanı və mədəni bitkiləri çarpazlaşdırmaqla yeni, məhsuldar və keyfiyyətli

formalar yaradılmışdı. Bu müddət ərzində 10 000-dən çox herbari materialı toplanmışdı. 3658 adda taxıl bitkiləri sort və hibridləri toplanmışdı. Hektardan məhsuldarlığı 65 ton olan çaytikanı plantasiyası 3 hektarda əkilmişdi. İrimeyvəli yemişan, doqquzdon, yabanı armud və alma, tikansız itburnu, qarağat və s. genefondu yaratmışdıq. Türkiyənin, İranın bir sıra universitetləri ilə genetik fondun rəsmi mübadiləsi, birgə tədqiqatlar aparmaq haqda protokol imzalamışdıq. Bu da qeyri-leqal yolla Azərbaycanın genetik fondunun başqa ölkəyə aparılmasının qarşısını alırdı.

Akademik F.Maqsudovun dəfn mərasimindən sonra H.Ə.Əliyev işlərimizlə maraqlandı, Kənd təsərrüfatı Nazirliyinin sonuncu mərtəbəsində yerləşdiyimizi, şöbə və laboratoriyaların tam gücüylə elmi tədqiqat apardığını bildirdim. Tətbiqi xarakterli işlər apardığımızı, yeni buğda, yem və meyvə bitki sortlarını yaratdığımızı və yeni meyvə bitkisi kimi çaytikanı meyvəsinin emalının kənd təsərrüfatının inkişafına stimul verəcəyini söylədim. Tapşırığını verdi ki, "Müraciət məktubu yazın, digər institutları yaradaq". Bununla da, AMEA-nın Naxçıvan Bölməsi yaradıldı. Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş ekoloji qərarlar, qanunlar, sərəncamlar ölkəmizin təbiətinin sağlamlığına yönəlmişdir. Bu iş sistem halında görüldüyü üçün böyük səmərə vermişdir. 1997-ci ildə alimlərlə görüşündə, 2002-ci ildə Naxçıvan Bölməsinin yaradılması münasibətilə müşavirədə çıxışında təbiətin qorunması, səmərəli istifadə edilməsi, elmi tədqiqatların tətbiqi yönümlüyünü vurğulayırdı. "Mən 1993-cü ildə Bakıya gələrkən, bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən, elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir...."